# Heydər Əliyev Mərkəzində tədbir




**Ağcabədi Rayon Heydər Əliyev Mərkəzində keçirilən "Narkomaniyaya yox deyək!" maarifləndirici tədbirdə rayon icra hakimiyyətinin, yerli "Aran" qəzetinin, rayon mərkəzi xəstəxanasının, YAP Ağcabədi rayon təşkilatının nümayəndələri iştirak ediblər.**

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktor əvəzi Rövşanə Əliyeva çıxış edərək son zamanlar narkotik vasitə istifadəçilərinin artmasının ciddi narahatlıq doğurduğunu və respublikamızda narkotik alverçilərinə, istifadəçilərinə qarşı ciddi tədbirlərin həyata keçirildiyini bildirib. Qeyd olunub ki, 2019-cu il 22 iyul tarixində Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə nəzarət və onun icrası zamanı işlərin müvafiq orqanlarla əlaqələndirilməsi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasına həvalə edilib.

Tədbirdə rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Vüsalə Məmmədova, Aran televiziyasının redaktoru Gündüz Nəcəfov, Ağcabədi Rayon Mərkəzi Xəstəxanasının əməkdaşları Lalə Həsənova, Ruhiyə Rüstəmova çıxış edərək narkomaniyanın qarşısının alınması istiqamətində təkliflər irəli sürüblər. Yeniyetmələri və gəncləri maraqlandıran suallar cavablandırılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 11 avqust.- S. 8.